# Azərbaycan Xalq Parlamenti

**Address:** **169 63 Solna, Sweden** **Phone: +4915205921770** **e-mail:** info@azxp.org
**Web:** www.azxp.org

“Millət vəkili, İntizam Komissiyasının sədri Teymur Eminbəylinin təşkilatçılığı ilə, bir qrup şəxsin Parlamentə qarşı təxribatçı hərəkətləri barədə”

**Azərbaycan Xalq Parlamenti Rəyasət Heyətinin**

**QƏRARI**

Nəzərə alaraq ki:

1. AzXP-nin 15.11.2025-ci il tarixli iclasında özlərini “müqavimətçi” adlandıran bir qrup şəxs tərəfindən iclasın gedişi pozuldu, Parlament Sədrinə və üzvlərinə qarşı Reqlamentdən kənar davranışlara yol verildi, Sədr və Parlament üzvləri təhqir edildi,

2. Parlamentin 22.11.2025-ci il tarixli iclasında RH tərəfindən gündəliyə salınmış “Parlamentin 15.11.2025-ci il taraixli iclasında baş verən Reqlament və Nizamnamə pozuntularının müzakirəsi” məsələsi 36 səslə həmin iclasın gündəliyindən çıxrıldı və RH-nin üzvləri və digər Parlament üzvləri bu qərarı qəbul edən millət vəkillərinin iradəsini hörmətlə qarşıladı,

3. Parlamentin 29.11.2025-ci il traixli iclasının gündəliyinə salınmış “Parlamentin 15.11.2025-ci il taraixli iclasında baş verən Reqlament və Nizamnamə pozuntularının müzakirəsi”nə mane olmaq məqsədilə, İntizam Komissiyasının sədri, millət vəkili Teymur Eminbəylinin təşkilatçılılğı, 22 millət vəkilinin müraciəti ilə növbədənkənar iclas çağırılması və RH-nin istefasının gündəliyə salınması tələb edildi və Parlamentin 29.11.2025-ci il tarixli iclasının gündəliyinin 1-ci bəndi kimi Parlamentin müzakirəsinə verildi və millət vəkillərinin 41 səs çoxluğu ilə bu məsələnin müzakirəsindən ümimiyyətlə imtina edildi,

4. AzXP Nizamnaməsinin 1.1.-ci maddəsinin tələbləri pozulmaqla, özü və ya valideynlərindən biri heç vaxt Azərbaycan vətəndaşı olmadığı müəyyən edilən İran İslam Respublikasının vətəndaşı Hüseyn Pursüleyman Abbas oğlunun, özlərini “müqavimətçi” adlandıran və İntizam Komissiyasının sədri Teymur Eminbəyli tərəfindən idarə edilən Seçki Komissiyasının üzvləri: Oktay Ömərov, Kəmalə Mehtiyeva və digər üzvləri tərəfindən namizədliyi qeydə alınmış, millət vəkili seçilmiş və RH-nin qərarı ilə onun mandatı etibarsız elan edildi.

5. Özünü “”müqavimətçi” adlandıran Aslan Mehtiyev Parlamentin 29.11.2025-ci il tarixli iclasında küçə söyüşləri söyərək Azərbaycan xalqını və Parlament üzvlərini, Azərbaycanın şərəfli qadın və qızlarını, uşaq və qocalarını təhqir etdi,

6. Parlamentin 29.11.2025-ci il tarixli iclasında, Reqlamentin 16.3.-cü maddəsinə uyğun olaraq, özünün və həyat yoldaşı Rza Səfərsoyun mandatdan imtina etdiyi barədə şifahi qaydada bəyanat verən Təranə Səfərsoyun bəyanatı nəzərə alınaraq lazımi addımlar atıldı,

7. Parlamentin 29.11.2025-ci il tarixli iclasından sonra millət vəkili Teymur Eminbəyli rəhbərlik etdiyi “müqavimətçilər”in vatsap qruplarında Parlamentin qərarlarını tanımadığını, RH-ni qəbul etmədiyini bəyan etmiş, rəhbərlik etdiyi ABA Media YouTube kanalında, RH tərəfindən mandatı etibarsız elan edilən İran İslam Respublikasının vətəndaşı Hüseyn Pursüleyman Abbas oğlunu öz efirinə çıxararaq Parlament əleyhinə təbliğat aparmış, əsassız şayilər yaymış, mandatından imtina edən Təranə Səfərsoyu millət vəkili kimi xalqa təqdim etməklə, canlı efirlə yayılan Parlament iclasında Azərbaycan xalqını küçə söyüşləri ilə söyüb təhir edən Aslan Mehtiyevə haqq qazandırmağa cəhd etməklə Parlamentə qarşı təxribatlarını davam etdirdi.
8. Bunlarla kifayətlənməyən Teymur Eminbəyli, Parlamentə qarşı təxribatçılıq əməllərini israrla davam etdirdi, 01.12.2025-ci ildə yenidən guya 50 nəfər millət vəkilinin imzası ilə iclas çağırmağa cəhd etdi.
9. Həmin siyahı araşdırılarkən müəyyən edildi ki, siyahıda mandatından könüllü imtina edənlərin, mandatı RH tərəfindən etibarsız elan edilən İran İslam Respublikasının vətəndaşı Hüseyn Pursüleymanın, mandatdan məhrumetmə cəzası nəzərdə tutulan Rəbiyyə Xanlarova və Aslan Mehdiyevin də adları var.
10. Eləcə də, bəzi millət vəkilləri ilə şəxsən əlaqə saxlayaraq müəyyən edildi ki, onların bu müraciətdən xəbərləri yoxdur, onlar bu müraciəti dəstəkləmir və

Teymur Eminbəylinin bu hərəkətləri  açıq şəkildə Parlamentə qarşı təxribat və onun sıralarında fitnə salma cəhdidir.

11. O da müəyyən edildi ki, Teymur Eminbəyli İntizam Komissiyasının sədri kimi də öz vəzifələrini düzgün yerinə yetirmir, ona “müqavimətçilərin” davranışı ilə bağlı edilən müraciətəri araşdırmır, İK-nın sədri kimi özünün Reqlament və Nizmanamədə nəzərdə tutulan vəzifələrini yerinə yetirmir, əksinə İK-dan şəxsi qisas silahı kimi istifadə etməyə cəhd edir.

12. İntizam Komissiyasının 5 üzvündən üçü “müqavimətçidir”. Onlardan Təranə Səfərsoy mandatından imtina etdiyi üçün İK-da 4 üzv qalıb. İK-nın sədri Teymur Eminbəyli və üzvü Eldar Həmidov 15.11.2025-ci il tarixli iclasda baş verən Reqlament pozuntularının təşkilatçısı və fəal  iştirakçısı kimi  RH-nin 27.11.2025-ci il tarixli qərarı ilə “TÖHMƏT” inzibatı məsuliyyət tədbirinə məruz qalıblar. Onlar bütün fəaliyyətlərini, istər vatsap qruplarında, istər “ABA Media”nın efirində Parlamentə qarşı pozuculuq işlərinə yönəldiblər və Parlamentin işini sobatajla məşğuldurlar,

13. RH-nin üzvləri və başqa millət vəkilləri tərəfindən son iki həftə ərzində Teymur Eminbəyli ilə aparılan söhbətlər heç bir nəticə vermədi,

Yuxarıda qeyd edilənlərə, AzXP  Reqlamentinin  24.2.4., 24.3.6., 24.3..8.-ci və 27,3.1.-ci maddələrini, Azərbaycan Xalq Parlamenti millət vəkilinin (namizədin) etik davranış kodeksi”nin 3.1. 3.3. , 3.4. və 4.-cü maddələrinə əsasən,

**Rəyasət Heyəti**

# Qərara alır:

1. Millət vəkili, İntizam Komissiyasının sədri Teymur Eminbəylinin “50 millət vəkilinin adından” yaydığı müraciət  AzXP-yə qarşı təxribat, Reqlament və Nizamnamə tələblərinin  pozulması kimi qiymətləndirilsin.

2. Teymur Eminbəyliyə öz təxribatçı hərəkətlərini dayandırmaq üçün sonuncu xəbərdarlıq edilsin.

3. AzXP-nin növbəti 6.12.2025-ci il tarixli iclasının gündəliyinə millət vəkilləri Rəbiyə Aslanovanın və Aslan Mehtiyevin mandatdan məhrum edilmələri, İntizam Komisiyyasının tərkibinin dəyişdirilməsi haqqında təşkilati məsələ salınsın.

4. Millət vəkili, RH-nin üzvü Abid Qafarova tapşırılsın ki, bütün millət vəkillərini gizli səsvermədə iştirak etmək üçün kodlarla təmin etsin.

5. AXCP sədri Əli Kərimlinin həbsi ilə bağlı Respublikada yaranmiş vəziyyət, bununla bağlı AzXP-nin vəzifələri və cari məsələlər 06.12.2025-ci il tarixli iclasın gündəliyinə salınsın.

Xatirə Cəbrayılova

**Azərbaycan Xalq Parlamentinin Sədri**

02.12.2025